# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


№ 241 (7409)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

30 dekabr 2025-ci il.
Qiymət 60 qəpik


## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü: milli birliyin tarixi təməli




6

## "Bakı Ağ Şəhər" paytaxtın ən müasir məkanına çevrilir



2

Prezident İlham Əliyev "Bakı Ağ Şəhər"də olub

# Trampın "yol komandası"




3

## Yeni il, yeni enerji: 2026 astroloji baxımdan necə olacaq ?




8

## Başsağlığı sayı artır, narahat olan varmı?..



4

## Kosmik sənayenin inkişafında yeni uğurlara imza atıldı



5

## "Liverpul" bu futbolçu üçün 60 milyon avro təklif edir!




8

## Qonaqpərvərlik nəyə lazımdır?



7





*Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva dekabrın 29-da "Bakı Ağ Şəhər"də olublar. AZƏRTAC xəbər verir ki, "Bakı Ağ Şəhər" layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına və birinci xanıma burada icra olunmuş və hazırda həyata keçirilən işlər barədə məlumat verdi.*

# "Bakı Ağ Şəhər" paytaxtın ən müasir məkanına çevrilir

## *Prezident İlham Əliyev "Bakı Ağ Şəhər"də olub*

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları əvvəlcə "Qarabağ atları" heykəltəraşlıq kompleksi ilə tanış oldular. Vətən müharibəsindəki Qələbəmizə həsr edilmiş və milli irsimizin rəmzi olan bu kompleks "Qarabağ atları" meydanında ucaldılıb. Kompleksdə "Soltan", "Ürək", "Sereyin", "Aypara", "Şöhrət", "Ötqəm" və "İldırım" adlı ümumilikdə 7 Qarabağ atının heykəli var.

Bu kompleksin təməlini 2022-ci ilin dekabrında Prezident İlham Əliyev qoyub. Kompozisiya amerikalı heykəltəraş Robert Sammers tərəfindən yaradılıb. Onun Dallas şəhərində "Mal-qara sürülməsi", Kaliforniya hava limanında "Con Ueyn" və digər əsərləri dünyaca məşhurdur.

Sonra dövlətimizin başçısı, birinci xanım və qızları "Bakı Ağ Şəhər"də Babək kvartalında həyata keçirilən işlərlə tanış oldular. Hazırda bu layihənin icrası istiqamətində işlər uğurla davam edir. Ərazisi 31 hektar olan kvartalda yeni park, məktəb binası, metronun bənövşəyi xəttində yeni stansiya, sərnişinlərin rahat hərəkəti üçün böyük nəqliyyat qovşağı, həmçinin çoxfunksiyalı qeyri-yaşayış, ictimai və yaşayış binalarının inşası planlaşdırılır. Ərazidə kafelər, uşaq oyun meydançası və digər sosial infrastruktur yaradılacaq. Bundan başqa, yaxınlıqda 2, 3, 6, 8 və 20 mərtəbəli binalar tikiləcək.

Kvartal Bakının mühüm nəqliyyat arteriyası olan Babək prospekti, "Ağ Şəhər" çərçivəsində salınmış, üç böyük prospektlə kəsişən, eni 45 metr olan Xaqani Rüstəmov küçəsi ilə əhatə olunub. Kvartalın cənub hissəsində yerləşən, metronun "Xətai" stansiyasından keçən Süleyman Vəzirov küçəsi də Babək prospekti ilə birləşir. Bu küçədəki dairədən Babək prospektinə qədər eni 34 metr, uzunluğu isə 1 kilometrdən çox olan dördzolaqlı yol yenidən qurulub. Hazırda Süleyman Vəzirov küçəsini Babək prospekti ilə birləşdirən, eni 32 metr olan iki əlavə yol qovşağının tikintisi üzrə işlər davam etdirilir. Bu küçə boyunca piyadaların rahat hərəkəti üçün eni 7 metr olan geniş səkilər salınıb, ağac və gül kolları əkilib, yerüstü piyada keçidləri, elektrik avtomobilləri üçün enerjidoldurma məntəqəsi, yanacaqdoldurma məntəqəsi və digər zəruri infrastruktur yaradılıb. Avtomobillərin rahat hərəkəti və sıxlığın qarşısının alınması üçün zəruri yerlərdə dönmə və geriyə çevrilmə zolaqları nəzərdə tutulub. Layihə çərçivəsində məktəbin qarşısında piyadaların parka və Bakı Avropa Liseyinə rahat hərəkətini təmin etmək məqsədilə piyada körpüsü quraşdırılıb.





Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Palıd meydanı parkında ilk palıd ağaclarını əkdilər. Qeyd edək ki, parkda çox sayda palıd, çinar, zeytun, ağcaqayın, maqnoliya, palma və digər mövsümi ağacların əkilməsi planlaşdırılır.

Dövlətimizin başçısı, birinci xanım və qızları "Bakı Ağ Şəhər"də Zaman meydanı və buradakı piyada körpüsünün açılışında da iştirak etdilər. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülmüş işlər barədə məlumat verdi.

Uzunluğu 234, eni isə 7-13 metr arasında dəyişən körpü "Bakı Ağ Şəhər"də piyadaların rahatlığının təmin edilməsində mühüm rol oynayacaq. Piyadalar onun vasitəsilə 8 Noyabr prospektində yerləşən Zaman meydanına, Babək prospektindən Mərkəzi Park rayonuna, Fəvvarələr meydanından isə Ağ Şəhər Bulvarına rahat gedə biləcəklər. Körpüdə quraşdırılan eskalator və liftlər metronun yeni "Ağ Şəhər" stansiyasına keçidi təmin edəcək.

8 Noyabr küçəsində yerləşən və 8 min kvadratmetrə yaxın ərazini əhatə edən Zaman meydanı gözəl landşaft və fəvvarələr kompleksi ilə əhatə olunub. Bura incəsənət və mədəniyyət həvəskarlarının məkanına çevrilib. Belə ki, meydanda bir çox yerli və xarici məşhur sənətkarların əsərləri nümayiş olunur. Meydan dünyada məşhur rəssam Konstantin Krik tərəfindən məhz "Bakı Ağ Şəhər" layihəsi üçün hazırlanmış 7 saatdan ibarət "Seven Public Clocks" kompozisiyası ilə bəzədilib. Konstantin Krikin 1999-cu ildə yaratdığı "Six Public Clocks" adlı eyni sənət instalyasiyası hazırda Londonda yerləşir və məşhur rəmzlərdən birinə çevrilib.

Meydanda yerləşən Cozef Klibanskinin "Buludların üstündə" adlı bürünc kompozisiyası da maraqla qarşılanır. Ağ Şəhərin mərkəzi yollarından biri olan Bulvar küçəsində müasir britaniyalı heykəltəraş Saymon Qadcenin "Nur axtarışında" heykəli də quraşdırılıb. Bu heykəl dünyanın müxtəlif ictimai yerlərində, o cümlədən Londondakı "Riverside Walk Garden" və "Hyde Park" komplekslərində qoyulub. Saymon Cadcenin xüsusi olaraq "Bakı Ağ Şəhər" üçün hazırladığı "Flaminqo" əsəri də tezliklə buradakı Dağdağan parkını bəzəyəcək.

Qeyd edək ki, bu ərazi 150 ildən çox neft sənayesi tullantıları ilə həddindən artıq çirkləndiyi və burada çoxsaylı neft gölməçələri yarandığı üçün bir vaxtlar "Qaraşəhər" kimi tanınırdı. Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu ərazi dünya miqyasında nadir ekoloji layihəyə, müasir yaşayış massivinə çevrilib. "Bakı Ağ Şəhər" layihəsi dünyada müasir şəhərsalma konsepsiyanın ən parlaq nümunələrindən biridir. Layihənin icrasına Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2011-ci il dekabrın 24-də başlanılıb. Layihə ekoloji cəhətdən təmiz, dayanıqlı və "ağıllı şəhər" prinsipləri əsasında işlənib hazırlanıb. Yaşayış binalarının əksəriyyəti MDB ölkələri arasında ilk dəfə olaraq BREEAM - beynəlxalq ekoloji sertifikatlaşdırma standartına və CRREM - karbon risklərinin qiymətləndirilməsi tələblərinə uyğun layihələndirilib. Geniş daxili küçələri, yaşıllıq sahələri, müasir beynəlxalq heykəltəraşlıq əsərləri ilə bəzədilmiş və şəhərsalmanın son yenilikləri nəzərə alınmaqla layihələndirilmiş "Bakı Ağ Şəhər" paytaxtın iş, yaşayış və istirahət üçün ən müasir məkanına çevrilir. Bütün dünyanın diqqət mərkəzində olan COP29-un mənzil-qərargahının məhz "Bakı Ağ Şəhər"də olması da rəmzi məna daşıyırdı. Bu, beynəlxalq iqlim gündəliyinə mühüm töhfələr verən Azərbaycanda ekoloji, o cümlədən yaşıllaşdırma məsələlərinin həlli ilə bağlı görülən işlərin nümayişi baxımından da mühüm əhəmiyyət daşıyırdı.



*Dekabrın 29-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva Azərbaycan Milli Xalça Muzeyini ziyarət edib. AZƏRTAC xəbər verir ki, qonağı Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova və rəssam Emil Əziz qarşılayıblar. Muzeyin ziyarət edilməsi zamanı Leyla Əliyeva, ilk növbədə, Emil Əzizin hazırda muzeydə nümayiş olunan "Naxış və siluet" adlı fərdi sərgisi ilə tanış olub. Sərgi rəssamın Azərbaycan xalçaçılığının zəngin irsini, ənənəvi naxışları müasir bədii dildə yenidən təsvir etdiyi təxminən 50 əsərini birləşdirir.*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Azərbaycan Milli Xalça Muzeyini ziyarət edib

Qarabağ atlarının təsvirləri və siluetin hərəkəti, gücü və zərifliyi xalça motivlərinin ritmi və quruluşu ilə mükəmməl şəkildə birləşdirilən qadın portretləri əsərlərdə xüsusi yer alıb. Sərginin yanvarın 12-nə qədər davam edəcəyi qeyd edilib.

Daha sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Azərbaycanın Əməkdar rəssamı Faiq Əhmədin "Faiq Əhməd: 2011–2024-cü illər" adlı retrospektiv sərgisinə baxıb. Sərgi müəllifin yaradıcılığının əsas mərhələlərini əhatə edir və ənənəvi Azərbaycan xalçaçılığına innovativ yanaşmasını nümayiş etdirir. Burada klassik toxuculuq müasir bədii düşüncə, fəlsəfə və aktual vizual təcrübələrlə birləşir. Vurğulanıb ki, Faiq Əhmədin əsərləri dünyanın aparıcı muzeylərində və kolleksiyalarında geniş şəkildə təmsil olunur və beynəlxalq səviyyədə tanınır.

O, həmçinin görkəmli rəssam, alim, tədqiqatçı və Azərbaycan Milli Xalça Muzeyinin təsisçisi Lətif Kərimova həsr olunmuş sərgi ilə tanış olub. Leyla Əliyevaya məlumat verilib ki, 2026-cı ildə Azərbaycan xalçaşünaslıq elmi məktəbinin formalaşmasında və xalçanın milli mədəniyyətin həyati bir fenomeni kimi institutlaşmasında mühüm rol oynamış Lətif Kərimovun anadan olmasının 120 ili tamam olur. Lətif Kərimov Azərbaycanın Xalq rəssamı, dövlət və beynəlxalq mükafatlar laureatı, fundamental elmi əsərlərin müəllifi, bir çoxu milli incəsənətdə əfsanəvi olan unikal xalça kompozisiyaları və dizaynlarının yaradıcısıdır. Leyla Əliyeva Lətif Kərimovun müəllifi olduğu xalçalarla, onun orijinal eskizləri ilə, eləcə də arxiv materialları ilə tanış olub.

Bundan əlavə, Leyla Əliyeva muzeyin üçüncü mərtəbəsində yenilənmiş sərgi ilə tanış olub, burada müasir müəllif



xalçaları və dekorativ-tətbiqi sənət əsərləri nümayiş olunur. Sərgidə iştirak edən rəssamlar arasında Eldar Mikayılzadə, Eldar Hacıyev, Samirə Allahverdiyeva, Çingiz Babayev, Tariel Bəşirov, Ali Pariyab və müasir Azərbaycan xalçaçılığının digər ustaları var.

Üçüncü mərtəbədəki yenilənmiş sərgidə əvvəllər nümayiş olunmamış əsərlər də təqdim olunur. Unikal xalça nümunələri ilə yanaşı, burada 1970-ci və 1980-ci illərin keramika, ağacoyma, batik, qobelen, bədii şüşə və digər dekorativ-tətbiqi sənət sahələrində nadir əsərlər də nümayiş olunur. Leyla Əliyevanın bu mədəniyyət ocağını ziyarət etməsi Azərbaycan Milli Xalça Muzeyinin milli xalça sənətinin qorunması, öyrənilməsi və təbliğində, eləcə də tarixi irsi müasir bədii proseslərlə birləşdirən bir mərkəz kimi mühüm rolunu nümayiş etdirir.

# Trampın "yol komandası"

## *Cənubi Qafqazda ABŞ-ın tezliklə Ermənistan və Azərbaycana xüsusi diqqət yetirəcəyi ilə bağlı fikirlər səslənir*

Ermənistan 2026-cı ilin əvvəlində ABŞ-ın vitse-prezidenti J.D.Vensin gəlişini gözləyir. Vaşinqtonun İrəvana "Tramp yolu"nun tikintisində yaxından iştirak edəcək yeni səfirini də göndərəcəyi gözlənilir. Bu arada Ermənistan hakimiyyəti artıq Azərbaycanla sərhədin açılması planlarını qurur. Ermənistan Amerika Araşdırmaları İnstitutunun rəhbəri Suren Sarkisyan ABŞ-ın vitse-prezidentinin və ya Vaşinqtonun digər yüksək rütbəli rəsmisinin fevralda İrəvana səfər edə biləcəyini açıqlayıb. Yüksək rütbəli amerikalı məmurun "Tramp yolu"nun inkişafına təkan verəcəyi və hətta TRIPP layihəsinin rəsmi açılış mərasimində iştirak edə biləcəyi gözlənilir. "Respublika adından" qərbyönlü müxalifət partiyasının sədri Arman Babacanyan da Vensin iştirak edəcəyinə inanır. "Bu, adi yüksək səviyyəli səfər deyil. Vaşinqton 8 avqust razılaşmalarını yerinə yetirmək üçün sürətlə irəliləyir. Belə səfərlərin konkret dəyəri var. Ermənistan aydın, ölçülə bilən tədbirlər paketi təqdim etməlidir", - siyasətçi bildirib.

Öz növbəsində, Ermənistanın baş naziri Nikol Paşinyanın keçmiş müşaviri Arsen Xaratyan Vaşinqtonun 2026-cı ildə İrəvana əvvəlkindən qat-qat çox diqqət ayıracağını təklif edib. O, bunu xüsusilə Amerika səfirinin geri çağırılması ilə əlaqələndirib. Xaratyanın sözlərinə görə, amerikalılar tezliklə investisiya və biznes məsələlərini daha yaxşı bilən yeni diplomat göndərəcəklər, çünki "Tramp yolu"nun həyata keçirilməsi məhz bu bilikləri tələb edəcək. Birləşmiş Ştatlar hələlik bu məsələyə münasibət bildirməyib. KİV-in diqqətinin artdığını görən Ermənistan Xarici İşlər Nazirliyi vəziyyəti şərh etmək məcburiyyətində qalıb. Departament ABŞ vitse-prezidentinin qarşıdan gələn səfəri ilə bağlı yayılan xəbərləri nə təkzib, nə də təsdiqləyib. "Biz Ermənistana planlaşdırılan yüksək səviyyəli səfərlər barədə vaxtında məlumat veririk", - deyə departamentin sözçüsü Ani Badalyan bildirib.

Qeyd edək ki, ABŞ-ın Ermənistanda səlahiyyət müddəti başa çatan səfiri Kristina Kvien dekabrın ortalarında son müsahibəsini verib. O, bildirib ki, TRIPP layihəsi Şərqlə Qərbi birləşdirməyə hesablanıb: "Uzunmüddətli perspektivdə bu, Mərkəzi Asiyadan Qərbi Avropaya gedən marşrutdur. Sizə yaxşı məlum olan bir sıra geosiyasi səbəblərə görə Qafqaz çoxdan bu marşrutun problemli hissəsi olub. Ermənistanın cənubundan keçəcək, oradan isə Naxçıvandan keçəcək, Gümrü və Qars, Türkiyə istiqamətində Ermənistana geriyə çıxışı olan təhlükəsiz marşrut Avropa ilə bütün şərq ölkələri arasında tam transit əlaqəni açacaq. Bundan hər kəs faydalanacaq. Ermənistanın şərq və qərb sərhədləri 30 ildən artıqdır ki, bağlı qaldığını nəzərə alsaq, digərlərindən daha çox qazanacaq".

Bu arada Ermənistan hakimiyyəti Azərbaycanla sərhədyanı ticarətin inkişafına ümid edir. Ermənistanın baş nazirinin aparat rəhbəri Arayik Arutyunyanın dediyi kimi, bu, iki ölkə arasında münasibətlərin normallaşmasının "təkamül inkişafının daha bir mərhələsi" olacaq. "Hazırda gedən proseslər - sülh müqaviləsinin imzalanması, kommunikasiyaların bloklanması, ticarətin bərpası - nə vaxtsa... həm də ikitərəfli və vətəndaşlararası transsərhəd ticarətə gətirib çıxaracaq", - Arutyunyan bildirib. Bundan əvvəl İrəvan Bakıdan 1300 ton benzin alıb və Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan sərhədin açılmasının vaxtının çatdığını deyib. "Ermənistanın ixrac edə biləcəyi malların siyahısı var. Bunlara alüminium, alüminium folqa, ferromolibden, heyvandarlıq, meyvə-tərəvəz, müəyyən içkilər, müxtəlif tekstil məmulatları daxildir. Araşdırmalar göstərir ki, biz bu malları ixrac edirik, Azərbaycan isə idxal edir", - Papoyan bildirib. Nazir bu mövzuda müzakirələrin davam etdiyini vurğulayıb. Eyni zamanda, o, Gürcüstanın dəmir yolu ilə yük tranziti tariflərini rəqabətsiz hesab edir.

Lakin Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov 2025-ci ilin yekunlarına yekun vurarkən gözlənilmədən bəyan etdi ki, Bakının bir yox, iki məcburi şərti var və onlar olmadan tərəflər sülh müqaviləsi imzalaya bilməyəcək. Əvvəllər Azərbaycan hakimiyyəti yalnız preambulasını ərazi bütövlüyünə təhlükə hesab etdikləri Ermənistan Konstitusiyasına düzəlişlər etməkdə israr edirdisə, indi "Tramp yolu" işə salınmadan rəsmi sülh sazişinin mənasız olduğuna qərar veriblər. "Azərbaycanla əməkdaşlıq olmadan layihənin həyata keçirilməsi mümkün deyil. Ona görə də biz əvvəlcədən şərtlərimizi və gözləntilərimizi qeyd etmişik və onların nəzərə alınacağını gözləyirik", - Bayramov bildirib. Paşinyan 2026-cı ildə "Tramp yolu"nun praktiki həyata keçirilməsinə başlayacağını vəd edir. Üstəlik, bunun İrəvanın daha böyük "Sülh yollarının kəsişməsi" təşəbbüsünü izləyəcəyi gözlənilir. Bu layihə, digər məsələlərlə yanaşı, bürokratik prosedurların sadələşdirilməsi yolu ilə bütün Cənubi Qafqazda beynəlxalq ticarətin köklü sadələşdirilməsini nəzərdə tutur.

### Yeri gəlmişkən...

Avqust ayında Ermənistan və Azərbaycan liderləri Nikol Paşinyan və İlham Əliyev ölkələri arasında sülh müqaviləsinin mətnini paraflayıblar. Bu, Vaşinqtonda, o vaxtdan bəri Qafqaz respublikalarının liderlərini dost adlandıran ABŞ prezidenti Donald Trampın vasitəçiliyi ilə baş verib. Eyni zamanda Tramp və Paşinyan bəyannamə imzalayıblar ki, Ermənistan və ABŞ Bakını onun eksklavı olan Naxçıvanla birləşdirən marşrut üzrə əməkdaşlıq edəcəklər. Bu layihə




"Beynəlxalq Sülh və Rifah üçün Tramp Yolu" (TRIPP) adlandırılıb.

O vaxtdan təxminən dörd ay keçib və layihə haqqında təfərrüatlar hələlik azdır, amma gələn ilin ikinci yarısında tikintinin başlanacağı barədə rəsmi açıqlamalar da var. Ermənistanın XİN başçısı Ararat Mirzoyan bu fikri təsdiq edib. İrəvanın "Tramp yolu"nu erməni-amerikan şirkətinə icarəyə verəcəyi məlumdur. Əvvəlcə sövdələşmənin 99 il olacağı gözlənilirdi ki, bu da investorlara sərmayələrini tam şəkildə geri qaytarmağa imkan verirdi, lakin sonra Paşinyan infrastruktur icarəsinin yalnız 49 il davam edəcəyini təklif edib. Təhlükəsizlik məsələləri də həll olunmamış qalır. Bir tərəfdən bunu Amerika və ya erməni-amerikan özəl mühafizə şirkətləri həyata keçirə bilərdi.

Maraqlıdır ki, Ermənistanda hakimiyyət uğrunda mübarizə aparan bütün qüvvələrdən yalnız Paşinyanın "Mülki müqavilə" partiyası nəyin bahasına olursa olsun layihəni başa çatdırmaq əzmindədir. Müxalifət hələ də "Zəngəzur dəhlizi"ni respublikanın milli təhlükəsizliyinə təhdid hesab edir. Təşəbbüsün əleyhdarları ehtiyat edirlər ki, Bakı öz eksklavına birbaşa çıxış əldə edəcək və potensial olaraq Zəngəzuru (Ermənistanda bura Sünik deyirlər) ikiyə böləcək, İranla əlaqələr kəsiləcək. Paşinyan həmvətənlərini belə dəhşətli hekayələrə inanmamağa çağırır. O, ermənilləri inandırır ki, "Tramp yolu" onun "Sülhün kəsişməsi" sülhməramlı təşəbbüsünün əsas elementi olacaq, Ermənistanı qlobal ticarət mərkəzinə çevirəcək, Aİ ilə Çin, Rusiya və Yaxın Şərq arasında ən qısa marşrutları təmin edəcək. İndiyədək ABŞ TRIPP-ə 145 milyon dollar sərmayə qoyub. Paşinyan Ermənistanın strateji tərəfdaşlıq sazişi imzaladığı Avropa İttifaqından da maliyyə cəlb etmək niyyətindədir. Brüssel buna qarşı deyil, İrəvanla yaxınlaşmanı Moskvadan uzaqlaşması ilə əlaqələndirir. Rusiya da öz növbəsində "Tramp yolu" ilə bağlı Ermənistan-ABŞ razılaşmasını dəstəkləyib. Baş nazirin müavini Aleksey Overçukun dediyi kimi, əgər ermənilər müvafiq bəyannamənin imzalanmasının onlara daha böyük təhlükəsizlik təminatları verdiyinə inanırlarsa, bu, yaxşı haldır, çünki Moskva regionda sülh proseslərini dəstəkləyir.

**V.VƏLİYEV**




# Dünyanın güclu idman dövləti

## *Prezident İlham Əliyev: "Son 5 il ərzində bizim bayrağımız qalib ölkənin bayrağı kimi beynəlxalq arenalarda qaldırılır"*

"Bu il idmançılarımız tərəfindən qazanılan medalların sayı rekord həddə çatıb. Beynəlxalq yarışlarda idmançılarımız tərəfindən 2000-dən çox medal, təqribən 600-dən çox qızıl medal qazanılıb. Bu, bir daha onu göstərir ki, idmanın inkişafı Azərbaycanda uğurla gedir. Keçən illə müqayisədə medalların sayı daha çoxdur və bu, yəqin ki, təbiidir. Çünki idmanın inkişafına göstərilən diqqət, aparılan dövlət siyasəti, əlbəttə ki, ildən-ilə daha yaxşı nəticələrə gətirib çıxarır". Bu sözləri Prezident İlham Əliyev 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı söyləyib.

Azərbaycanda idman hərəkatı Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra inkişaf etməyə başladı. Bununla da, demək olar ki, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyuldu. Müasir dövrdə bu siyasəti uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən Dünya və Avropa çempionatları bir daha sübut etdi ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir. Azərbaycanda Olimpiya Hərəkatının inkişafı Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Milli Olimpiya Komitəsinə Cənab İlham Əliyev Sədr seçiləndən sonra Azərbaycanda Olimpiya Hərəkatı vüsət almağa başladı. Bu illər ərzində Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngimədi. Azərbaycanın hər bir yerində yeni və müasir idman komplekslərinin tikintisinə başlanıldı. Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya komitələri üçün örnək oldu. 1998-ci ildə respublikamız ilk dəfə Qış Olimpiya Oyunlarına qatıldı. Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya Oyunlarında respublikamız 5 nəfər idmançı ilə dörd yarışda təmsil olundu. 2000-ci ildə Sidney Olimpiyadasında Azərbaycan idmançıları 2 qızıl, 1 bürünc medal qazandı. Azərbaycan komanda hesabına 199 ölkə arasında 34-cü, Avropa ölkələri arasında isə 23-cü oldu. Bu ölkənin Olimpiya hərəkatı tarixində ən böyük uğuru idi. 2002-ci ildə Azərbaycan ikinci dəfə Qış Olimpiya Oyunlarının iştirakçısı oldu. ABŞ-ın Soit Leyk siti şəhərində keçirilən bu oyunlarda idmançılarımız 3 yarışda iştirak etdilər. Beləliklə, Azərbaycan idmançıları olimpiya oyunlarında möhtəşəm uğurlara imza atmışdır.

### "Çox böyük beynəlxalq idman yarışları ilk dəfə idi ki, Azərbaycanda keçirilmişdir"

"Azərbaycanda ənənəvi olaraq bir çox beynəlxalq idman yarışları keçirilir. Bəziləri ənənəvi xarakter alır, bəziləri xüsusilə çox böyük beynəlxalq idman yarışları ilk dəfə idi ki, Azərbaycanda keçirilmişdir. Bu ilin ölkəmizdə keçirilmiş əsas idman yarışı təbii ki, MDB ölkələrinin üçüncü Oyunları olmuşdur. Oyunlar çox yüksək səviyyədə keçirilmişdir. Bu Oyunların xüsusiyyəti ondan ibarət idi ki, onlar bölgələrdə - bir neçə şəhərdə keçirilmişdir. Yəni bu, özlüyündə bir göstəricidir, - deyə Prezident qeyd edib. Dövlət başçımız qeyd edib ki, bu il ölkəmizdə ilk dəfə olaraq UFC üzrə beynəlxalq turnir keçirilmişdir. Bu da dünya miqyasında ən populyar idman yarışıdır və adətən bu yarışların əksər mərhələləri Amerikada keçirilir, yaxud da ki, ən inkişaf etmiş ölkələrdə. Bakını da bu siyahıya salmağımız, ilk növbədə, ölkəmizin potensialını göstərir: "Eyni zamanda, onu göstərir ki, biz artıq bu sahədə də öz fəaliyyətimizi göstəririk. Yenə də turnirin təşkilatçıları ilə görüşüm zamanı onlar da qeyd edirdilər ki, Bakının bu cür inkişaf etmiş şəhər olmasını, bu dərəcədə gözəl şəhər olmasını heç təsəvvür edə bilmirdilər, heç gözləmirdilər. Yəni minlərlə iştirakçının, xarici qonağın iştirakı ilə keçirilən və dünya mediası tərəfindən işıqlandırılan belə bir yarış ölkəmizin təqdimatının bir növüdür".

### "Bizim siyasətimizin əsas istiqamətlərindən biri də gəncləri sağlam ruhda tərbiyə etməkdir, vətənpərvərlik ruhunda tərbiyə etməkdir"

Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən Dünya və Avropa çempionatları bir daha sübut etdi ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir. Müasir dövrümüzdə Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir.

### "Şərqi Zəngəzurda böyük infrastruktur işləri görülür"

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. İdmana ayrılan diqətin nümunəsidir ki, mötəbər idman yarışları, tədbirlər ölkəmizdə davamlı olaraq təşkil olunub. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub.

Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işləri böyük sürətlə həyata keçirilir. Artıq həmin ərazilərdə ilk beynəlxalq turnirlər təşkil olunub. Milli Paralimpiya Komitəsi də Qarabağda Paralimpiya hərəkatının inkişaf etdirilməsini qarşıya məqsəd qoyub. Əsas hədəf bütün Azərbaycanın Paralimpiya hərəkatı ilə əhatə etməkdir. Bütün azad edilmiş şəhərlərin Baş planları təsdiq edilib. Bütün bərpa-quruculuq işləri Baş planlar əsasında aparılır. Burada idman obyektlərinin yaradılması nəzərdə tutulur. "Qarabağda və Şərqi Zəngəzurda böyük infrastruktur işləri görülür. Artıq orada da - Köndələnçay su anbarında, Suqovuşan su anbarında yarışlar keçirilir. Gələcəkdə Sərsəng su anbarında da avarçəkmə üzrə yarışlar keçirilə bilər. Yəni ölkəmizin bu cür inkişafı, o cümlədən idman sektoruna da müsbət təsir göstərir", - deyə Przident bildirib. Bəli, idman Azərbaycanda dövlət siyasətidir və bu gün ölkəmizdə dünya, Avropa, Olimpiya çempionlarımız var. Bütün bunlar isə, bir daha göstərir ki, ölkəmizdə idmanın inkişafı sistemli xarakter daşıyır. Görülən işlər, həyata keçirilən tədbirlər Azərbaycanın düzgün inkişaf yolu tutduğunu sübut edir.

***Zümrüd BAYRAMOVA***



Mətanət Məmmədova

# Başsağlığı sayı artır, narahat olan varmı?..

***Ötən həftələrdə 2024-cü ildə Azərbaycanda doğulan uşaqların sayı açıqlandı: 101066 uşaq. Və onlardan 74563-nün təbii yolla, 69913-nün isə qeysəriyyə əməliyyatı ilə həyata keçirildiyi bildirildi. Məlumatın yayılmasından bir xeyli vaxt keçir. Maraqlıdır, görəsən budan narahat olan aid rəsmi qurum varmı? Yəni, ölkədə az qala təbii doğuşla qeysəriyyənin yarı-yarıya düşməsi kimisə narahat etdimi?***

Əvvəllər qeysəriyyə əməliyyatına təsadüf nəticəsində rast gəlirdik. Anada hansısa bir patoloji vəziyyət yarandıqda, ona övladını qeysəriyyə əməliyyatı ilə dünyaya gətirməsi tövsiyə olunurdu. Bu da ki, ana və onun yaxın qohumları tərəfindən sanki matəm kimi qarşılanırdı. Çünki insanlar şüurlu şəkildə anlayırdı ki, uşaq dünyaya təbii yolla gəlməlidir. Bunu Ulu Yaradanın səbəbi olub ki, belə məsləhət bilib. Lakin nə etməli, ana və uşaq üçün təhlükə varsa, cəhənnəm, qoy qeysəriyyə ilə olsun, deyirdilər. Yaxınlar, tanışlar, qohumlar isə belə ailələrə sanki başsağlığı verərdi ki, bəs gör nə baş verib sizin üçün.

Zaman ötdükcə, təbii doğuşlar yavaş-yavaş öz yerini qeysəriyyəyə verməyə başladı. Xeyr, burada hansısa bir patoloji vəziyyət yaranmadı ana olacaq qadınlar arasında. Onlar özləri "patoloji vəziyyət" olaraq doğuş sancılarından, ağrılarından canlarını qurtarmaq üçün bu yola əl atmağa başladılar. Bizim səhiyyə isə bunu heç də anormal hal kimi qəbul etmədi. İş gəlib o yerə çatdı ki, qeysəriyyə üçün müraciət edənlərin sayı ildən-ilə çoxalmağa başladı. Onu da qeyd edim ki, təbii doğuşla qeysəriyyə arasında 1000 manatadək fərq var. Baxmayaraq ki, qeysəriyyə daha çox vəsaitə başa gəlir, lakin qadınlar bunu daha üstün tutmağa başladı.

Bəzi həkim heyəti üçün də bu, sanki göydəndüşmə oldu. Doğuş üçün gələn qadınlar ya öz istəkləri, ya da "patoloji hal" məsləhəti ilə qeysəriyyə əməliyyatı üçün hazırlandı. Ta onlara deyən olmadı ki, təbii doğuş 1-2 saatdan sonra qadının ayaq üstündə olması, südünün normal şəkildə gəlməsi deməkdir. Onlara deyən olmadı ki, uşağın sağlamlığı üçün təbii doğuş gərəkdir. Deyilmədi ki, qeysəriyyə anormallığını nə vaxtsa göstərəcək, təbii yolla doğulanlarla qeysəriyyəlilər arasında fərqi ortaya qoyacaq. Bunu bilmək də hər bir qadının əlindədir. İnternet dünyasında nəyi bilməmiş deyilik ki...

Budur, 101066 uşağın cəmi 74563-nün təbii yolla doğulması, nə az, nə çox, 69913-nün isə qeysəriyyə əməliyyatı ilə dünyaya gəlməsi, vallah dərindən düşünəndə faciədir. Lakin bunun faciə olduğunu şüurlu şəkildə neçə nəfər anladı, bu rəqəm neçə nəfərin diqqətini çəkdi, neçə nəfər həyəcanlandı ki, başımıza gör nələr gəlir... Ötən illərin yanaşması ilə götürsək, görün başsağlığının sayı neçə olub, ildən-ilə, gündən-günə hara yüksəlib?

Bəs narahat olan necə, varmı?.. Bəlkə məsələyə gözlərimizi və ya eynəyimizi silib yenidən baxaq. Niyə kiminsə cibləri dolsun, bizimki boşalsın? Nə üçün kimsə yox ağlı ilə bizə ağıl versin, biz də onu dinləyək? Bəlkə doğuş qərarını sağlam və normal şəkildə özümüz verək, övladımızı təbii yolla dünyaya gətirək. Nə qədər əks maarifləndirmənin, sosial şəbəkələrdə boş-boş çağırışların, qonşu qadın belə edib, mən də edim, tələbə yoldaşım, rəfiqəm də qeysəriyyə ilə doğdu və ya mən nə üçün sancı, ağrı çəkməliyəm iddialarının qurbanı olmalıyıq?.. Vallah, dərk etsək, başsağlığı sayı çoxalır. Lakin dəyişənlərdən biri də odur ki, başsağlığı verməkdə də artıq unutduqlarımızdandır.

# Kosmik sənayenin inkişafında yeni uğurlara imza atıldı

***2025-ci il başa çatır. Böyük fərəh və qürur hissi ilə demək olar ki, Azərbaycan dövləti və xalqı üçün 2025-ci il uğurlu illərdən oldu. Prezident, Fateh Sərkərdə İlham Əliyev tərəfindən elan olunan "Konstitusiya və suverenlik ili" çərçivəsində ölkəmizdə çoxsaylı beynəlxalq tədbirlər keçirildi, iqtisadi, siyasi layihələr icra olundu. "Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad edilən ərazilərimizdə infrastruktur layihələrinin sürətləndirilməsi və məşğulluğun təmin olunması istiqamətində möhtəşəm işlər görüldü, təmir-tikinti işlərindən sonra insanların öz doğma yurd yerlərinə qayıdışı davam etdirildi.***



Təhlil

Təbii ki, qazanılan nailiyyətlər ölkə Prezidenti İlham Əliyevin "Əldə olunan uğurlarla kifayətlənməməli, daim irəliyə baxmalıyıq" tarixi fikirlərinə əsaslanır. Bu baxımdan əminliklə demək olar ki, qarşıdan gələn 2026-ci ildə xalqımız və dövlətimiz üçün uğurlu illərdən olacaq. Bunu 2026-cı ilin dövlət büdcəsi də təsdiqləyir. 2026-cı il üçün əhalinin gəlirlərinin artacağı proqnozlaşdırılır. 2026-cı ilin dövlət büdcəsində əməyin ödənişi xərclərinə 10247,6 milyon manat (2025-ci illə müqayisədə 524,7 milyon manat və ya 5,4 faiz çox) və ya xərclərin 24,6 faizi həcmində, malların (işlərin və xidmətlərin) satın alınmasına 7038,5 milyon manat (2025-ci illə müqayisədə 1529,1 milyon manat və ya 27,8 faiz çox) və ya xərclərin 16,9 faizi həcmində, faizlər üzrə ödənişlərə 1380,6 milyon manat (2025-ci illə müqayisədə 80,6 milyon manat və ya 6,2 faiz çox) və ya xərclərin 3,3 faizi həcmində, subsidiyaların ödənilməsinə 1071,4 milyon manat və ya xərclərin 2,6 faizi həcmində, qrantlar və digər ödənişlərə 3308,1 milyon manat və ya xərclərin 7,9 faizi həcmində, sosial ödənişlərə 3433,6 milyon manat (2025-ci illə müqayisədə 68,9 milyon manat və ya 2,0 faiz çox) və ya xərclərin 8,2 faizi həcmində, dövlət icbari şəxsi sığorta xərclərinə 62,1 milyon manat (2025-ci illə müqayisədə 11,1 milyon manat və ya 21,6 faiz çox) və ya xərclərin 0,1 faizi həcmində, qeyri-maliyyə aktivlərinin alınmasına 13901,8 milyon manat və ya xərclərin 33,3 faizi həcmində, maliyyə aktivləri üzrə əməliyyatlara 183,0 milyon manat və ya xərclərin 0,4 faizi həcmində, öhdəliklər üzrə əməliyyatlara 1077,0 milyon manat və ya xərclərin 2,7 faizi həcmində vəsait nəzərdə tutulub. Xərclərin ünvanlılığının daha da artırılması və aidiyyəti xərc maddələrində proqnozlaşdırılması hesabına "Sair xərclər" maddəsi üzrə 2025-ci illə müqayisədə 2026-cı ilin dövlət büdcəsində 225,2 milyon manat və ya 17,6 faiz az vəsait proqnozlaşdırılır.

## Azərbaycan özünün yeni inkişaf dövrünü yaşayır

Söz yox ki, 2026-cı ildə İKT sektorunda yeni uğurlara imza atılacaq. Bunun üçün hər cür şərait və imkanlar mövcuddur. Məlum faktdır ki, informasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatında mühüm rola malikdir. Bunu nəzərə alan Ulu Öndərimiz Heydər Əliyev 2003-cü il 17 fevral tarixində ”Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)”nın təsdiq edilməsi haqqında Sərəncam imzaladı. ”İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya” rabitə və informasiya texnologiyaları sahəsində kompleks tədbirlərin həyata keçirilməsində, bu sahənin qanunvericilik bazasının gücləndirilməsində əhəmiyyətli rol oynadı. Bu baxımdan demək olar ki, bu gün informasiya-kommunikasiya texnologiyaları sahəsində əldə olunan nailiyyətlər Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. 2003-cü il prezident seçkilərində xalqın mütləq dəstəyini qazanaraq Azərbaycan Prezidenti seçilən Ulu Öndər Heydər Əliyevin ən layiqli siyasi varisi Cənab İlham Əliyev ölkəmizin bütün sahələrinə olduğu kimi informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da xüsusi önəm verdi və bu sahənin inkişafı üçün dövlət proqramları, fərman və sərəncamlar imzaladı. Prezident İlham Əliyevin 2005-ci il 22 oktyabrında imzaladığı ”Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)” fərmanı rabitə və informasiya texnologiyalarının geniş tətbiqinə yeni imkanlar açdı. Dövlət Proqramı ölkəmizin hər bir yerində rabitə və informasiya texnologiyalarının geniş yayılmasını təmin etmiş oldu.

Görülən işlərin məntiqi olaraq artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə ”Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması”, 2009-cu ildə ölkədə ”Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında” və 2010-cu ildə ”Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında imzalanan sərəncamlar ölkəmizdə yüksək texnologiyaların tətbiqinə və kosmik sənayenin yaradılmasına göstərilən böyük diqqətin nümunəsidir. 2023-cü il də Milli Məclis "Kosmik fəaliyyət haqqında" qanun qəbul etdi. Belə bir qanunu qəbul edən dünya miqyasında cəmi 16 dövlət var ki, onlardan bir də Azərbaycandır. "Kosmik fəaliyyət haqqında" kosmik texnologiyanın üstünlüklərinin ölkəmizdə təbliği və yayılması, eləcə də qarşılıqlı anlaşma və etimadın gücləndirilməsi üçün çox vacibdir. 2024-cü ilin əvvəlində Azərbaycan geostasionar orbitdə məhdud resursa sahib ölkələr arasında özünəməxsus orbital mövqeyi ilə söz sahibi oldu. Belə ki, "Azerspace-1" telekommunikasiya peykinin olduğu 46° şərq uzunluğu orbital mövqeyinin C və Ku tezlik diapazonları artıq Azərbaycana məxsusdur. Avropanın, ABŞ-ın və Azərbaycanın tanınmış mütəxəssislərinin birgə əməkdaşlığı ilə 2013-cü il də orbitə çıxarılan ”Azərspase-Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayenin inkişaf etdirilməsi ilə yanaşı, böyük həcmdə xarici valyutanın təmin olunmasında da mühüm rola malikdir.

## "Azərbaycanın Zəfəri" peyki orbitdə

Hazırda ”Azərspace-1” peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 120-dən artıq televiziya kanalı yayılmlanır. ”Azərspace -1” peykin orbitə çıxarılmasının ardınca 2018-ci il sentyabrın 26-da Fransanın Qvianasında yerləşən Kuru kosmodromundan Azərbaycanın "Azerspace-2" peyki orbitə buraxıldı. Prezident İlham Əliyev "Azerspace 2" peykinin orbitə buraxılması münasibətilə xalqa təbrikində demişdir: "Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azerspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək".

Azərbaycanın orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdən olması onu deməyə əsas verir ki, ölkəmiz yaxın gələcəkdə regional kosmik sənaye mərkəzinə çevriləcək. Yerli və xarici mütəxəssislər o fikirdədirlər ki, 2023-cü ildə kosmik sənayenin inkişafı üçün çox gözəl imkanları olan Azərbaycanda İKT sektorundan əldə olunan gəlirlər neft gəlirlərini üstələyəcək. Bu istiqamətdə Azərbaycanın dünya ölkələri ilə əməkdaşlığı artır və daha da dərinləşir.

Göründüyü kimi, 2025-ci il Azərbaycanda bütün sahələr üzrə uğurlu, yadda qalan illərdən birinə çevrilir. Kosmik sənayenin inkişafı sahəsində qazanılan nailiyyətlər daha ürəkaçandır. Hətta elə bir müsbət nəticələr var ki, cəmiyyətin fəal təbəqələrindən olan gənclər, məktəb şagirdləri də bu və digər fəaliyyətləri ilə kosmik sənayenin inkişafına öz töhfələrini verməyə çalışırlar. Bu il Azərbaycanlı məktəblilərin hazırladığı ilk peyk Kaliforniyadakı Vandenberq Kosmik Qüvvələr Bazasından SpaceX şirkətinin "Falcon 9" raketi ilə uğurla orbitə göndərilib.Azərbaycan Kosmik Agentliyinin (”Azərkosmos”) nəzdində fəaliyyət göstərən KOSMİK Akademiyanın "Milli Peyk İnnovasiya" müsabiqəsi çərçivəsində 7–9-cu sinif şagirdləri tərəfindən hazırlanan bu kiçik ölçülü - "PocketQube" tipli peyk artıq kosmosdadır. Azərbaycanın Vətən müharibəsində əldə etdiyi zəfərin 5 illiyinə həsr olunan bu peykin adı da "Azərbaycanın Zəfəri"dir.Bu qürurverici layihə ölkənin təhsil və innovasiya ekosistemində tarixi dönüş nöqtəsi hesab olunur. Azərbaycanın 41 məktəbindən 672 şagirdin iştirak etdiyi proqram regionda məktəblilər arasında həyata keçirilən ən geniş kosmik təşəbbüslərdən biri kimi qeyd olunur. Zəfər peyki 297 nömrəli məktəbin şagirdləri tərəfindən hazırlanıb. Layihə gənc nəsildə vətənpərvərlik ruhunu, yaradıcı düşüncəni və texnoloji marağı birləşdirən hadisə kimi dəyərləndirilir.

"Azərbaycanın Zəfəri" peykimiz orbitdə baza sınaqlarını həyata keçirəcək, telemetriya məlumatları toplayacaq və şagirdlərə buraxılışdan sonra da peyk əməliyyatları üzrə real təcrübə əldə etmək imkanı verəcək. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan nəinki, regionun ümumilikdə dünyanın əsas kosmik güc mərkəzlərindən birinə çevrilib, Prezidentimiz İlham Əliyevin dediyi kimi, Azərbaycan kosmik dövlətə çevrilib: "Bunu hələ bir neçə il bundan əvvəl təsəvvür etmək belə çətin idi. Hazırda bizim iki peykimiz var - telekommunikasiya və ərazilər müşahidə peykləri. Üçüncü peyk bu il orbitə buraxılacaq. Azərbaycan dünyanın məhdud olan kosmik klubunun üzvüdür. Bu, texnologiyadır, təhsildir, biznesdir və inkişafdır".

***İLHAM ƏLİYEV***

# "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycanın ən dəyərli sərvətidir"




ŞƏRH

"Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycanın müstəqillik tarixində ən dəyərli mənəvi sərvətlərdən biri hesab olunur. Bu əlamətdar tarix təkcə milli azadlığımızın rəmzi deyil, eyni zamanda tarixi proseslər, dövlətlərarası qarşıdurmalar və imperiyalar daxilində yaşanan çətinliklər nəticəsində dünyanın müxtəlif guşələrinə səpələnmiş soydaşlarımızın vahid millət ətrafında birləşməsini ifadə edir". Bu sözləri SİA- ya açıqlamasında politoloq Sahil Kərimli bildirib. Onun sözlərinə görə, illər ərzində Ümummilli Liderin siyasi iradəsi əsasında formalaşan Azərbaycan diaspor strukturları, lobbi təşkilatları və beynəlxalq platformalar milli maraqların müdafiəsinə, xüsusilə ölkənin ərazi bütövlüyünün təmin olunmasına yönəlib:

”Bu gün qürur hissi ilə demək olar ki, Azərbaycan məğlubiyyət mərhələsindən çıxaraq həmrəylik və zəfər yoluna qədəm qoyub. Milli birliyin əhəmiyyəti yalnız keçmiş dövrlərlə məhdudlaşmır, həm bu gün, həm də gələcək nəsillər üçün strateji əhəmiyyət daşıyır. Dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının milli kimliyini qoruması, ana dilini yaşatması və elmi, texnoloji, iqtisadi, institusional sahələrdə potensialını artırması mühüm vəzifədir. Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri zamanı soydaşlarla görüşlərə xüsusi önəm verməsi, Dünya Azərbaycanlılarının qurultay və forumları vasitəsilə türk dünyası ilə birlikdə qlobal güc mərkəzinin formalaşdırılması bu strategiyanın tərkib hissəsidir. Azərbaycan xalqının həmrəyliyinin ən parlaq nümunələrindən biri 44 günlük Vətən müharibəsində özünü göstərdi. Həmin tarixi mərhələdə hər bir azərbaycanlı mənəvi və fiziki gücü ilə düşmənə qarşı mübarizəyə qoşuldu və milli birlik nəticəsində şanlı Qələbə əldə olundu. Bu zəfər yalnız bir tarixi hadisə deyil, eyni zamanda gələcək nəsillərə ötürülməli olan böyük milli dəyərdir".

***Günay Hacıyeva***

# Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü: milli birliyin tarixi təməli



Elxan Quliyev,
Əməkdar müəllim

***"Dünya azərbaycanlılarının həmrəyliyi gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır.***

Dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir."

**Ümummilli Lider Heydər Əliyev**

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycan xalqının milli kimliyinin, tarixi yaddaşının və müstəqil dövlətçilik ideyasının təntənəsini ifadə edən mühüm ictimai-siyasi hadisədir. 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olmaqla yanaşı, bütün dünya azərbaycanlılarını vahid ideya, vahid məqsəd və vahid Vətən anlayışı ətrafında birləşdirən ümummilli bayramdır. Bu gün Azərbaycan xalqının həm tarixi keçmişinə, həm də müasir inkişaf yoluna nəzər salmaq, milli birliyin əhəmiyyətini bir daha dərk etmək baxımından xüsusi önəm daşıyır.

Ümummilli Lider Heydər Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü xalqımızın dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən mühüm ideoloji hadisə kimi xarakterizə edərək vurğulamışdır ki, dünyanın müxtəlif ölkələrində milyonlarla azərbaycanlı yaşasa da, onların milli-mənəvi varlığını yaşadan yeganə dövlət müstəqil Azərbaycan Respublikasıdır. Bu fikir həmrəyliyin əsas ideoloji mahiyyətini təşkil edir. Azərbaycan dövlətçiliyinə sədaqət, milli dəyərlərin qorunması və ümumbəşəri prinsiplərə hörmət dünya azərbaycanlılarını birləşdirən əsas amillərdir.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün yaranma tarixi XX əsrin sonlarında baş verən milli oyanış hərəkatı ilə sıx bağlıdır. Sovet imperiyasının süqutu ərəfəsində Araz çayının hər iki sahilində yaşayan azərbaycanlıların sərhədlərə doğru yürüşü, Şimali və Cənubi Azərbaycan arasında uzun illər mövcud olmuş süni maneələrin aradan qaldırılması arzusu xalqımızın bir millət olduğunu bütün dünyaya nümayiş etdirdi. Bu hadisələr milli birliyin və həmrəyliyin simvoluna çevrildi. Məhz həmin tarixi proseslərin davamı olaraq Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli iclasında 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədə qərar qəbul edildi. Bu qərar sonradan Azərbaycan Respublikasının Ali Soveti tərəfindən təsdiqləndi və bayram rəsmi status aldı. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü təkcə bir bayram deyil, həm də milli ideologiyanın – azərbaycançılıq məfkurəsinin təcəssümüdür. Ümummilli Lider Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı bu məfkurənin mənəvi əsasını təşkil edir və hər bir azərbaycanlı üçün milli qürur rəmzinə çevrilmişdir. Azərbaycançılıq ideologiyası dilə, mədəniyyətə, tarixə və dövlətçiliyə sədaqəti ifadə edərək dünya azərbaycanlılarını vahid ideoloji platformada birləşdirir. Qurultaydan sonra qəbul edilən mühüm qərarlar bu siyasətin institusional əsaslarını yaratdı. 2002-ci ildə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması və "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirdi. Sonrakı illərdə bu siyasət Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildi və yeni məzmunla zənginləşdirildi.

Prezident cənab İlham Əliyev dünya azərbaycanlılarını "xaricdə yaşayan böyük ailəmiz" kimi xarakterizə edərək vurğulamışdır ki, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı öz Vətəninə bağlıdır. Dövlət başçısının "Bizim bir vətənimiz var – Azərbaycan! Bizim bir dilimiz var – Azərbaycan dili! Bizim ümumxalq ideologiyamız var – azərbaycançılıq məfkurəsi!" fikirləri dünya azərbaycanlılarının mənəvi birliyinin əsas sütunlarını təşkil edir. Prezident cənab İlham Əliyev bütün xarici səfərləri zamanı diaspor nümayəndələri ilə görüşərək onların problemləri ilə maraqlanır, diaspor quruculuğunun dövlət müstəqilliyinin möhkəmləndirilməsində mühüm rol oynadığını xüsusi vurğulayır. Azərbaycan diasporunun inkişafı istiqamətində atılan mühüm addımlardan biri 2008-ci ildə Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması, 2018-ci ildə isə Azərbaycan Diasporuna Dəstək Fondunun təsis olunmasıdır. Bu addımlar diaspor təşkilatlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, milli-mənəvi dəyərlərin təbliğinə və xaricdə yaşayan azərbaycanlıların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Hazırda dünyanın 50-dən çox ölkəsində yüzlərlə diaspor təşkilatı, Koordinasiya Şuraları və Azərbaycan evləri fəaliyyət göstərir ki, bu da diaspor siyasətinin real nəticələrini əks etdirir. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü xüsusilə Vətən müharibəsi dövründə öz mahiyyətini daha aydın şəkildə nümayiş etdirdi. 44 günlük Vətən müharibəsi zamanı dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar misilsiz həmrəylik nümayiş etdirdilər, Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyətə çatdırılması üçün fəal mübarizə apardılar. Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, xaricdə yaşayan soydaşlarımızın anti-Azərbaycan dairələrin təxribatlarına qarşı qətiyyətli mövqeyi Qələbəmizə layiqli töhfə oldu. "Dəmir yumruq" yalnız hərbi gücün deyil, milli birliyin və həmrəyliyin də rəmzinə çevrildi.

Bu birliyin zirvə nöqtəsi 2022-ci ildə azad Şuşada keçirilmiş Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayı oldu. Tarixi Zəfərdən sonra ilk dəfə olaraq dünya azərbaycanlılarının azad Qarabağda toplaşması həm simvolik, həm də siyasi baxımdan böyük əhəmiyyət daşıyırdı. Prezident cənab İlham Əliyevin vurğuladığı kimi, bu Qurultay Ulu Öndər Heydər Əliyevin illər əvvəl söylədiyi tarixi sözlərin reallığa çevrildiyini bütün dünyaya nümayiş etdirdi.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycan xalqının milli birliyinin, tarixi yaddaşının və müasir dövlətçilik ideyasının parlaq təzahürüdür. Bu gün dünya azərbaycanlılarını vahid ideya və məqsəd ətrafında birləşdirir, müstəqil Azərbaycan dövlətinin gücünü və cazibəsini nümayiş etdirir. Dövlətin ardıcıl və məqsədyönlü diaspor siyasəti nəticəsində dünya azərbaycanlıları bu gün daha mütəşəkkil, daha fəal və daha güclü qüvvəyə çevrilmişdir. Həmrəylik Günü isə bu birliyin mənəvi sütunu olaraq xalqımızın gələcək inkişaf yolunda mühüm rol oynamağa davam edəcəkdir.

# Azərbaycanda idmanın inkişafı: dövlət siyasətinin strateji prioriteti və milli gücün təzahürü



*Tərminə Əsədova,
"Vətən" idman liseyi publik hüquqi şəxsin direktoru*

Müasir dövrdə idman yalnız fiziki fəaliyyət və yarış nəticələri ilə məhdudlaşmır, eyni zamanda dövlətin beynəlxalq imicinin formalaşdırılması, gənclərin sağlam və vətənpərvər ruhda yetişdirilməsi, sosial həmrəyliyin möhkəmləndirilməsi və davamlı inkişafın təmin olunması baxımından mühüm strateji vasitəyə çevrilmişdir. Prezident cənab İlham Əliyevin 2025-ci ilin idman yekunlarına həsr olunmuş mərasimdə çıxışı Azərbaycanın idman siyasətinin mahiyyətini, əldə olunan nailiyyətlərin səbəblərini və gələcək hədəflərini kompleks şəkildə əks etdirən mühüm proqram xarakterli çıxış kimi qiymətləndirilir.

Dövlət başçısının qeyd etdiyi kimi, 2025-ci ildə Azərbaycan idmançıları beynəlxalq yarışlarda rekord nəticələr əldə etmiş, 2000-dən artıq medal, o cümlədən 600-dən çox qızıl medal qazanmışlar. Bu göstəricilər təkcə statistik uğur deyil, uzunmüddətli, ardıcıl və məqsədyönlü dövlət siyasətinin real nəticəsidir. Keçən illərlə müqayisədə medal sayının artması idmana göstərilən diqqətin, maddi-texniki bazanın gücləndirilməsinin və peşəkar kadr hazırlığının effektivliyini açıq şəkildə nümayiş etdirir. Bu uğurlar Azərbaycanın idman ölkəsi kimi mövqeyini daha da möhkəmləndirir və beynəlxalq arenada nüfuzunu yüksəldir. Azərbaycanda idmanın inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi formalaşdırılmışdır. Son illər ərzində bu sahədə çoxsaylı dövlət proqramları icra edilmiş, idman infrastrukturu demək olar ki, sıfırdan qurulmuşdur. Müasir Olimpiya İdman kompleksləri, idman zalları və məşq mərkəzləri həm paytaxtda, həm də regionlarda yaradılmışdır. Prezident cənab İlham Əliyevin vurğuladığı kimi, 2025-ci ildə Gəncə və Yevlax şəhərlərində Olimpiya İdman komplekslərinin istifadəyə verilməsi ilə bölgələrdə bu cür komplekslərin sayı 46-ya çatmışdır. Bu fakt regionların sosial-iqtisadi inkişafı ilə yanaşı, gənclərin idmana cəlb olunmasına, sağlam həyat tərzinin təşviqinə və kütləvi idmanın genişlənməsinə xidmət edir. Prezident cənab İlham Əliyevin çıxışında gənclərin vətən pərvərlik ruhunda tərbiyə olunması məsələsi xüsusi vurğulanmışdır. Dövlət başçısının fikrincə, fiziki hazırlıqla mənəvi saflıq vəhdət təşkil etməlidir. Məhz bu vəhdət ölkənin gücünü və dayanıqlı inkişafını təmin edən əsas amillərdəndir. Son illərin tarixi hadisələri, xüsusilə Azərbaycanın qazandığı şanlı Qələbə gənclərin məsuliyyət hissini artırmış, onları müzəffər xalqın layiqli nümayəndələri kimi formalaşdırmışdır. Beynəlxalq yarışlarda Dövlət Bayrağının qaldırılması hər bir idmançı üçün təkcə şəxsi uğur deyil, həm də milli qürur məsələsidir. Azərbaycanda beynəlxalq idman yarışlarının keçirilməsi ölkənin idman potensialının və təşkilati imkanlarının göstəricisidir. 2025-ci ilin ən mühüm idman hadisələrindən biri MDB ölkələrinin üçüncü Oyunlarının yüksək səviyyədə təşkili olmuşdur. Bu Oyunların bölgələrdə – Gəncə, Xankəndi və digər şəhərlərdə keçirilməsi Azərbaycanın regional inkişaf strategiyasının idman sahəsində də uğurla tətbiq olunduğunu göstərir. Minlərlə xarici qonağın iştirakı ilə keçirilən bu yarışlar ölkəmizin qonaqpərvərliyini, müasir infrastrukturunu və təhlükəsiz mühitini nümayiş etdirmişdir. Azərbaycan komandasının bu Oyunlarda komanda hesabında ikinci yeri tutması isə idmançıların yüksək hazırlıq səviyyəsinin göstəricisidir. Formula 1 yarışlarının Azərbaycanda keçirilməsi idmanla turizmin vəhdətinin bariz nümunəsidir. Dövlət başçısının vurğuladığı kimi, ilk Formula 1 yarışından sonra ölkəyə gələn xarici turistlərin sayı 20 faiz artmışdır. Bu yarışlar vasitəsilə Bakı şəhəri və ümumilikdə Azərbaycan yarım milyarddan artıq auditoriyaya təqdim olunur. Bütün biletlərin əvvəlcədən satılması, yarışlara olan yüksək maraq bu tədbirlərin ölkənin imicinə verdiyi töhfəni bir daha təsdiqləyir.

Qış idman növlərinin inkişafıda dövlət siyasətinin mühüm istiqamətlərindəndir. İlk dəfə olaraq Qusarda, Şahdağ Xizək Turizm Mərkəzində Xizək üzrə Dünya Kubokunun keçirilməsi Azərbaycanın qış idmanları sahəsində yeni mərhələyə qədəm qoyduğunu göstərir. Şahdağ Xizək Mərkəzinin davamlı inkişafı, yeni trasların istifadəyə verilməsi və turizm infrastrukturunun genişlənməsi regionda minlərlə yeni iş yerinin yaradılmasına şərait yaratmışdır. Bu proses yalnız idman deyil, eyni zamanda sosial-iqtisadi inkişaf baxımından da böyük əhəmiyyət kəsb edir. Prezident cənab İlham Əliyevin çıxışında qeyd olunan mühüm hadisələrdən biri də Bakı şəhərinin "Dünyanın İdman Paytaxtı" seçilməsidir. Bu status Azərbaycanda idman sahəsində görülən işlərə verilən yüksək beynəlxalq qiymətin təzahürüdür. Nəticə etibarilə, Prezident cənab İlham Əliyevin 2025-ci ilin idman yekunlarına həsr olunmuş çıxışı göstərir ki, idman Azərbaycanda təkcə fiziki fəaliyyət sahəsi deyil, milli gücün, dövlət siyasətinin və ictimai inkişafın ayrılmaz tərkib hissəsidir. İdmanın inkişafı sağlam gəncliyin formalaşdırılmasına, vətənpərvər cəmiyyətin qurulmasına, beynəlxalq nüfuzun möhkəmləndirilməsinə və ölkənin davamlı inkişafına xidmət edir. Mövcud siyasətin ardıcıl şəkildə davam etdirilməsi Azərbaycanın gələcək illərdə də idman sahəsində yeni uğurlara imza atacağını deməyə əsas verir.

# Dünyanın ən çirkli şəhərləri: Bakıda vəziyyət...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasimədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



***Hava çirkliliyi son illərdə ən aktual ətraf mühit və ictimai səhiyyə problemlərindən birinə çevrilib. Air Quality Index, yəni Hava Keyfiyyəti İndeksinə (HKİ) görə 2025-ci il üçün dünyanın ən çirkli 10 şəhəri arasında bu dəfə Bağdad və Kulkata (Kəlküttə) da yer alıb. Hava Keyfiyyəti İndeksinin son məlumatları dünyanın bir neçə böyük şəhərində, xüsusən də Yaxın Şərq və Cənubi Asiyada təhlükənin böyük olduğunu sübut edir.***

Oktyabrda açıqlanan məlumatlara görə, İraqın Bağdad şəhəri hazırda dünyanın ən çirkli şəhəri olaraq qiymətləndirilir və HKİ 170-i keçib. Hindistanın Kəlküttə şəhəri ikinci yerdədir, HKİ burada 160-dan yuxarıdır. Pakistanın Lahor şəhəri 160 göstərici ilə dördüncü yerdədir, digər Pakistan şəhəri olan Karaçi isə 157 ilə rekord qırıb. Hava Keyfiyyəti İndeksinə görə, Hindistanda Dehlinin hava keyfiyyəti Divali bayramından cəmi on gün əvvəl kəskin şəkildə pisləşib və eyni gündə HKİ göstəricisi 157-yə çatıb. Mütəxəssislər bu artımı qonşu ştatlarda küləş yandırılması və nəqliyyat vasitələri və sənaye tullantıları kimi mövsümi amillərlə əlaqələndirirlər.

Dəkkə kimi digər sıx məskunlaşmış şəhərlər də sürətli urbanizasiya, yol tıxacları və atmosfer emissiyaları kimi təsirlərə məruz qalaraq oxşar çətinliklərlə üzləşib. Bu arada, ABŞ-da Detroyt, İsveçdə Stokholm və Finlandiyada Helsinki kimi şəhərlər hava keyfiyyət səviyyələrini 20-dən aşağı saxlayıb və bu da onları dünyanın ən təmiz və ən az çirklənmiş şəhər ərazilərindən birinə çevirib.






Bakının hava keyfiyyətinə gəlincə, şəhərimiz Dehli, Lahor, Dakka, Kolkata (Kəlküttə), Pekin, Bağdad kimi şəhərlərlə eyni kateqoriyada yer almır, yəni onlar qədər çirkli deyil. Lakin bu o demək deyil ki, Bakının hava keyiyyəti yüksəkdir. Şəhərimizdə təbii ki lokal və mövsümi hava keyfiyyəti problemləri var ki, bunlardan ən birincisi nəqliyyat sıxlığı, şəhərin küləkli havaya malik olması, sənaye zonalarına yaxın yaşayış əraziləri, köhnə avtomobillər və yanacağın keyfiyyətsiz olmasıdır. Bu göstəricilərinə görə Hava Keyfiyyəti İndeksi Bakı üçün orta çirklilik - 51–100 rəqəmini göstərir. Bəzən bu rəqəm yüksələ və "həssas qruplar üçün zərərli" (101–150) səviyyəsinə qalxa bilər.

Ekoloqlar şəhərləri çirkli havadan qorumağın əsas yollarından birinin nəqliyyatın azaldılması və yanacağın keyfiyyətinin yüksəldilməsi olduğunu deyir. Şəxsi avtomobillər yerinə ictimai nəqliyyatın (metro, avtobus, tramvay) istifadəsinin artırılması ekologiyanın qorunmaq üçün optimal yoldur. Elektrik və hibrid avtomobillərin təşviqi ilə də ekoloji təmizlik yaratmaq mümkündür, lakin son illər elektrik ilə işləyən avtomobillərin enerji depolayan batareyalarının istismar müddətinin bitməsi ilə əlaqədar təbiətə atılmasının və ya təkrar emalının ekologiyaya daha çox zərər verməsi ətrafında mübahisəli iddialar var.

Hava heyfiyyətinin yüksəldilməsinin bir yolu da köhnə, normaya cavab verməyən avtomobillərin mərhələli olaraq dövriyyədən çıxarılması məsələsidir. Bundan əlavə velosiped və piyada zolaqlarının artırılması da çıxış yoludur. Sənaye emissiyalarına nəzarətin dügün həyata keçirilməsi, zavod və fabriklərdə filtrasiya sistemlərinin məcburi tətbiqi, şəhər mərkəzlərində ağır sənayenin məhdudlaşdırılması, ekoloji standartlara əməl etməyən müəssisələrə cərimələrin sərtləşdirilməsi, habelə yaşıl zonaların artırılması, park və bağların salınması, magistral yollar boyunca ağac sayının çoxaldılması, şəhər içi meşə zolaqları salmaq hava keyfiyyətini yüksəldəcək çıxış yollarıdır.

O cümlədən tikinti və şəhərsalma qaydalarına əməl etmək də vacibdir. Tikinti zamanı tozun yayılmasının qarşısını alan texnologiyalardan istifadə etmək vacibdir, lakin bu gün buna əməl edən çox azsaylı dövlət var. Şəhərsalma planlarında hava koridorlarının saxlanması, sıx və nizamsız tikintinin məhdudlaşdırılması havanın keyfiyyətini qoruyacaq tədbirlərdəndir.

Havanın keyfiyyətini qoruyacaq vacib məsələlərdən biri də enerji siyasətidir. Kömür və mazutdan istifadənin azaldılması, qalıq yanacaqdan asılılığı minimum həddə endirmək, günəş və külək enerjisinə keçid, dizel generatorlarının nəzarətsiz istifadəsinin qarşısının alınması həm bərbaolunmayan enerji qaynaqlarını mühavizə edər, həm də ekoloji təmiz mühit yaradar.

Unutmayaq, təmiz hava ən təməl və ən əsas insan hüququdur. Şəhərlərin gələcəyi bu gün atılan ekoloji addımlardan asılıdır və bu gələcəkdə hər bir vətəndaş rol oynayır.

***Lalə Mehralı***

# Qonaqpərvərlik nəyə lazımdır?



Elçin Bayramlı

***Azərbaycan xalqı əsrlər boyu qonaqpərvərliyi ilə tanınıb və bu xüsusiyyət milli-mənəvi dəyərlərimizin əsas sütunlarından biridir. Qonaqpərvərlik ən yüksək insani dəyərlərdən biridir. Lakin müasir həyat tərzi, mənəvi deqredasiya və insanların kommunikasiya texnologiyalarının inkişafına uyaraq ünviyyəti də virtuallaşdırması nəticəsində bu gözəl ənənə getdikcə zəifləyir.***

Yeni dövrün trendinə çevrilən yanaşmalara görə insanlar qonaqpərvərliyi getdikcə lazımsız hesab etməyə başlayırlar. Hətta bu yüksək dəyəri lağa qoyanlar da tapılır. Bəziləri yazır ki, bəs bizim evlərdə həmişə xüsusi qonaq otağı olub və orada həmişə təmiz yatacaq və sair təzə əşyalar saxlanıb. Evdə olan nemətlərin ən yaxşılarından qonaq payı kimi saxlanıb.

Evində son tikəsi ilə qonaq qarşılayan, küçədən keçəni belə zorla evinə dəvət edən bir millətik. Bunun necə yüksək dəyər olduğunu heç də hər kəs anlaya bilməz. Bu səbəbdən də artıq bəziləri qonaqpərvərliyin zərərli olduğu haqda cəfəng fikirlər yaymağa başlayır.

Bu hal qloballaşma prosesinin təsiri ilə milli-mənəvi dəyərlərimizin arxa plana keçməsi və "müasirlik" adı altında yad dəyərlərin mənimsənilməsi ilə bağlıdır. Burada sosial və maddi problemlərin rolunun olduğunu söyləmək düzgün olmaz. 3 təkzibedilməz arqumentlə dediklərimizin doğruluğunu isbat edək;

1. Xalqımız tarix boyu ən ağır, ən çətin dövrlərdə belə qonaqpərvərliyini yüksək səviyyədə qoruyub saxlayıb,

2. İndi belə madii cəhətdən daha az imkanlı adamlar daha çox imkanı olanlardan daha qonaqpərvərdir,

3. Bu gün də dünyanın bir çox yoxsul ölkələrində qonaqpərvərlik yüksək səviyyədədir, əksinə, maddi baxımdan zəngin ölkələrdə bu dəyər çox zəifdir.

Bu 3 fakt göstərir ki, qonaqpərvərliyin zəifləməsi maddi amillərlə deyil, mənəvi deqradasiya və həyat tərzinin dəyişməsi ilə bağlıdır. Müasirlik adı altında qəbul edilən yeni yaşam forması bəzi dəyərlərin unudulmasına səbəb olur. Halbuki qonaqpərvərlik ən ali mənəvi keyfiyyətlərdən biridir. Bu, insanın başqasına qarşı mənəvi öhdəliyi, eqoist olmaması və qarşılıqlı hörmətinin göstəricisidir.

Bütün bunlara rəğmən hələ də tamamilə bu yüksək mənəvi dəyəri itirməmişik. Bu gün də Azərbaycan xalqı qonaqpərvərliyini qoruyub saxlayır. Sadəcə müəyyən təsirlər nəticəsində, xüsusən böyük şəhərlərdə bu ənənədə nisbi zəifləmə müşahidə olunur. Kiçik şəhərlərdə və kəndlərdə isə qonaqpərvərlik ənənələri olduğu kimi davam edir.

Bəziləri qonaq getməyi və ya qəbul etməyi mütləq bahalı hədiyyə almaq və ya bahalı süfrə açmaq kimi anlayır və bundan yayınmağa çalışır. Halbuki, qonaq getmək və ya qəbul etmək üçün bunlara ehtiyac yoxdur. Normal insanlar yaxın birinə qonaq gedərkən yemək içmək məqsədi güdmür, onu yoluxmaq, hal-əhval əhval tutmaq, dərdləşmək məqsədi güdürlər. Qonağa da bahalı süfrə açmağa ehtiyac yoxdur, evdə olan sadə yemək və çay da kifayət edər.

Qonaq anlayışı diqqət, dəyər və səmimi ünsiyyət deməkdir. İnsanlar maddiyyata deyil, mahiyyətə önəm verdikdə qonaqpərvərlik üçün heç bir manеə qalmır. Düzdür, bəzi insanların vaxt problemi, iş gərginliyi var, xüsusilə böyük şəhərlərdə tez-tez qonaq gedib-gəlmək çətinləşir. Amma buna baxmayaraq, müəyyən qədər vaxt tapıb qohum-əqrəba ilə görüşmək lazımdır. Bu, cəmiyyət üçün böyük mənəvi dəyərdir, sosial münasibətləri sağlamlaşdırır, insanlara müsbət enerji verir, ünsiyyəti, dostluğu və yoldaşlığı möhkəmləndirir, ümumi dəyərlərimizi gücləndirir. Vaxt azdırsa belə, gec-gec də olsa görüşmək mümkündür.

Bəzən insanlarımız tanımadıqları şəxsləri belə qonaq edir. "Allah qonağı" ifadəsi minillərdir psixologiyamızda özünə möhkəm yer eləyib. Kəndlərə müvəqqəti gələn birini evində saxlamaq üçün insanlar sanki yarışa girirlər ki, qonaq məhz onlarda qalsın.

Biz belə bir xalqıq və bu dəyəri itirən deyilik. Müasir dövrün bütün təzyiqlərinə baxmayaraq, qonaqpərvərlik bizim milli kimliyimizin ayrılmaz hissəsidir. Birdəfəlik anlamalıyıq ki, biz azərbaycanlıyıq. Nə qədər müasirləşsək də, baza dəyərlərimizdən biri olan qonaqpərvərliyi yaşadacağıq. Ən ağır, ən yoxsul şəraitdə olsaq belə, çünki hər şey istəkdən, qəlbdən asılıdır. Bu hiss qəlbdə varsa, bu dəyər də yaşayacaq.

SON SƏHİFƏ
SƏS
30 dekabr
2025-ci il

# Yeni il, yeni enerji: 2026 astroloji baxımdan necə olacaq ?

*Yeni ilin gəlişi ilə insanlar təkcə təqvimi yox, gözləntilərini də yeniləyir. Hər il olduğu kimi, 2026-cı il ərəfəsində də bir çoxları qarşıdakı dövrün necə keçəcəyini, hansı dəyişikliklərin yaşanacağını maraqla düşünür. Astroloji proqnozlar bu suallara cavab axtaranların ən çox üz tutduğu sahələrdən biridir.*

Astroloqlara görə, 2026-cı il dəyişikliklər, yeni başlanğıclar və daxili dönüşlər ili kimi xarakterizə olunur. Bu proqnozlar elmi əsaslara söykənməsə də, insanlar üçün ilin enerjisini anlamaq və planlarını yenidən gözdən keçirmək baxımından maraqlı istiqamətlər təqdim edir. SİA mövzu ilə bağlı araşdırma edib. Astroloji yanaşmaya görə 2026-cı il dəyişikliklər, yeni başlanğıclar və köhnə vərdişlərdən uzaqlaşma ili kimi dəyərləndirilir. Bu il bir çox insan həyatında "artıq vaxtıdır" dediyi qərarları verməyə meyilli olacaq.

## Ümumi enerji

2026-da insanlar daha cəsarətli qərarlar vermək, öz istəklərini açıq ifadə etmək, yarımçıq qalan işləri tamamlamak istəyəcək. Astroloqlar bunu planetlərin daha aktiv və hərəkətli mövqeyi ilə əlaqələndirirlər.




## Əsas mövzular üzrə 2026 proqnozu

### Yeni başlanğıclar

Bu il "yenidən başlamaq" mövzusu ön plandadır. İş dəyişmək, yeni layihəyə başlamaq, köçmək və ya həyat tərzini yeniləmək istəyənlər üçün əlverişli dövr sayılır.

### Münasibətlər

2026-cı ildə süni və məcburi münasibətlər zəifləyə, səmimi və real əlaqələr güclənə bilər. Bəzi insanlar keçmiş münasibətləri yenidən dəyərləndirəcək, bəziləri isə tamamilə yeni tanışlıqlara açıq olacaq.

### İş və maddi sahə

Astroloji şərhlərə görə: zəhmətin qarşılığını almaq, bacarığı ön plana çıxarmaq, kiçik, amma stabil gəlirlər daha real görünür. Riskli addımlardansa planlı və düşünülmüş qərarlar tövsiyə olunur.

### Daxili dəyişikliklər

2026 daha çox insanın özünü tanımaq, həyatına kənardan baxmaq istədiyi il kimi şərh olunur. Bu da psixoloji inkişaf, prioritetlərin dəyişməsi, "mən nə istəyirəm?" sualının aktuallaşması ilə müşayiət oluna bilər.

### Cəmiyyət və dünya

Astroloji yanaşmada 2026 ictimai dəyişikliklərin, yeni qaydaların, köhnə sistemlərin yenilənməsinin daha çox müzakirə edildiyi il kimi göstərilir.

### Bürclər üzrə qısa ümumi tendensiya

-Qoç, Şir, Oxatan – aktivlik və irəliləyiş
-Buğa, Qız, Oğlaq – sabitlik və planlama
-Əkizlər, Tərəzi, Dolça – ünsiyyət və yeni ideyalar
-Xərçəng, Əqrəb, Balıqlar – emosional dərinlik və dəyişiklik

Astroloji baxımdan 2026-cı il köhnəni buraxmaq, yeniyə yer açmaq, daha şüurlu seçimlər etmək ili kimi təqdim olunur. Bu proqnozlar elmi deyil, amma bir çox insan üçün düşünmək və plan qurmaq baxımından istiqamətverici ola bilər.

*Ayşən Vəli*

## Üzüm çəyirdəyindən hazırlanan undan çörək bişirilir...



*...Rusiyanın Rostov vilayətindəki alimlər turş dadı olan ləzzətli, ətirli çörək istehsal edən yeni bir məhsul - üzüm çəyirdəyi unu yaratdılar.*

SİA xəbər verir ki, bu barədə "Rossiyskaya Gazeta" Don Aqrar Universitetinə məlumat verib.

Resept demək olar ki, adi maya xəmirinin resepti ilə eynidir. Onlar sadəcə tünd toz - əzilmiş üzüm çəyirdəyi əlavə edirlər. Universitetin Qida Texnologiyaları Departamentinin məlumatına görə, bu tərkib hissəsi ilə bişirilən çörək məhsulları mədə-bağırsaq funksiyasını yaxşılaşdırmaq da daxil olmaqla çox faydalıdır.

Bundan əlavə, üzüm unu antioksidantlarla zəngindir. Giləmeyvə toxumları şərab istehsalının tullantı məhsuludur. Adətən, onlar sadəcə fabriklərdə atılır.

Kütləvi bazar üçün hələ də ekzotik olan bu çörəyin bişirilməsi cəmi yarım saat çəkir.

İnkişafın müəllifləri patent müraciəti hazırlayırlar.

*Nazlı Almuradova*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Liverpul" bu futbolçu üçün 60 milyon avro təklif edir!



***İngiltərənin "Liverpul" klubu Madridin "Real" komandasında çıxış edən braziliyalı hücumçu Rodriqonu transfer siyahısına daxil edib. Mersisayd təmsilçisinin futbolçu ilə bağlı yaxın vaxtlarda rəsmi addım atacağı bildirilir.***

İspaniyanın "Defensa Central" nəşrinin yaydığı məlumata görə, "Liverpul" 24 yaşlı hücumçunun keçidi üçün 50-60 milyon avro məbləğində təklif hazırlayıb. Klub rəhbərliyi Məhəmməd Salahın gələcəyi ilə bağlı qeyri-müəyyənlik fonunda hücum xəttini gücləndirmək üçün alternativ variantlar üzərində işləməyə başlayıb. Məlumata əsasən, Rodriqo "Liverpul"un potensial əsas transfer hədəflərindən biri kimi dəyərləndirilir və danışıqların yaxın günlərdə intensivləşəcəyi istisna edilmir.

Qeyd edək ki, braziliyalı futbolçu cari mövsüm "Real"ın heyətində bütün turnirlər üzrə 21 oyuna çıxıb, 2 qola imza atıb və 4 məhsuldar ötürmə verib. Rodriqonun Madrid klubu ilə mövcud müqaviləsi 2028-ci ilin yayına qədər qüvvədədir.


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000